**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Özbəkistan Respublikasının Prezidenti yanında Milli Sosial Müdafiə Agentliyi arasında sosial müdafiə sahəsində əməkdaşlıq haqqında**

# ANLAŞMA MEMORANDUMU

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Özbəkistan Respublikasının Prezidenti yanında Milli Sosial Müdafiə Agentliyi (bundan sonra "İştirakçılar" adlandırılacaq),

ölkələri arasında əhalinin sosial müdafiəsi sahəsində fəal əlaqələr yaratmaq və inkişaf etdirmək niyyətlərini ifadə edərək,

təcrübə mübadiləsi yolu ilə qarşılıqlı faydalı ikitərəfli əməkdaşlığa marağını rəhbər tutaraq,

qarşılıqlı maraq doğuran məsələlər üzrə əməkdaşlığı inkişaf etdirmək niyyətini nəzərə alaraq

aşağıdakılar barədə razılığa gəldilər:

## Paraqraf 1

İştirakçılar öz səlahiyyətləri çərçivəsində və dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq aşağıdakı sahələrdə birgə təşəbbüslərin həyata keçirilməsi yolu ilə əməkdaşlıq edirlər:

a) sosial müdafiə sahəsində müvafiq qanunvericiliyin təkmilləşdirilməsi;
b) sosial müdafiə sahəsində dövlət xidmətlərinin rəqəmsallaşdırılması;
c) əhalinin sosial cəhətdən həssas qrupları üçün sosial xidmətlərin şəbəkəsinin təşkili və genişləndirilməsi, fiziki və hüquqi şəxslər tərəfindən xidmətlərin göstərilməsi;
d) sosial işçilərin fəaliyyətinin təşkil olunması;
e) çətin həyat şəraitində olan şəxslərə evdə (səyyar) və yarım-stasionar formada göstərilən sosial xidmətlərin təşkil olunması (sosial-reabilitasiya və sosial-adaptasiya prosesində qiymətləndirmə və müdaxilə proqramları);
f) övladlığagötürmə sahəsində xidmətlərin təşkili, xidmətin göstərilməsi prosesinin rəqəmsallaşdırılması;
g) mediasiya xidmətlərinin təşkili, könüllü fəaliyyət, aktiv yaşlanma və digər layihələr;
h) əlilliyi olan şəxslərin sosial müdafiəsinin təşkili, əlilliyin qiymətləndirilməsi və reabilitasiya sistemi;
i) iştirakçıların öz səlahiyyətləri çərçivəsində müəyyən etdikləri istənilən digər birgə fəaliyyətlərin həyata keçirilməsi.

## Paraqraf 2

İştirakçılar öz səlahiyyətləri çərçivəsində və dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq bu Anlaşma Memorandumunun 1-ci Paraqrafında qeyd edilmiş istiqamətlər üzrə aşağıdakı formalarda əməkdaşlıq edirlər:

a) normativ hüquqi aktların, məlumat-analitik məlumatların və tədqiqatların nəticələrinin mübadiləsi;
b) təcrübə və məlumatların mübadiləsi;
c) iştirakçıların mütəxəssisləri arasında müzakirələr;
d) beynəlxalq forumlarda qarşılıqlı maraq doğuran məsələlər üzrə vahid mövqelərin razılaşdırılması;
e) əməkdaşlığın İştirakçılar tərəfindən müəyyən edilmiş istənilən digər formaları.

## Paraqraf 3

Bu Anlaşma Memorandumunun icrasının əlaqələndirilməsi üzrə İştirakçıların cavabdeh qurumları aşağıdakılardır:

- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən – Beynəlxalq əlaqələr şöbəsi;

- Özbəkistan Respublikasının Milli Sosial Müdafiə Agentliyi tərəfindən – Beynəlxalq əlaqələr, reytinq və investisiyalar şöbəsi.

İştirakçılar bu Anlaşma Memorandumunun 1-ci Paraqrafında göstərilən istiqamətlərdə fəaliyyətlərin həyata keçirilməsi məqsədilə birgə İşçi Qrupu yarada bilər.

İştirakçılar bu Anlaşma Memorandumuna uyğun olaraq ayrıca layihələrin həyata keçirilməsi məqsədilə müəyyən edilmiş qaydada sənədlər imzalayırlar.

## Paraqraf 4

Bu Anlaşma Memorandumunun icrası ilə bağlı maliyyə xərclərini hər bir İştirakçı onun dövlətinin qanunvericiliyinə uyğun olaraq qarşılayır.

## Paraqraf 5

Bu Anlaşma Memorandumuna İştirakçıların qarşılıqlı yazılı razılığı ilə onun ayrılmaz tərkib hissəsi olan ayrıca protokollar formasında əlavələr və dəyişikliklər edilə bilər və bu Anlaşma Memorandumunun 8-ci Paraqrafında qeyd olunmuş prosedura uyğun olaraq tətbiq edilir.

## Paraqraf 6

Bu Anlaşma Memorandumu beynəlxalq müqavilə deyil və beynəlxalq hüquqla tənzimlənən hər hansı hüquq və öhdəlik yaratmır və İştirakçılar üçün hər hansı maliyyə öhdəliyi qoymur.

## Paraqraf 7

Bu Anlaşma Memorandumunun təfsiri və ya tətbiqi zamanı yarana biləcək hər hansı fikir ayrılığı İştirakçılar arasında məsləhətləşmələr yolu ilə həll edilir.

## Paraqraf 8

Bu Anlaşma Memorandumu imzalandığı gündən tətbiq edilir.

Bu Anlaşma Memorandumu beş (5) il müddətinə bağlanır və İştirakçılardan biri onun müddətinin bitməsinə ən azı altı (6) ay qalmış onu ləğv etmək niyyəti barədə digər İştirakçıya yazılı bildiriş göndərmədiyi təqdirdə, avtomatik olaraq növbəti beş (5) illik müddətlərə uzadılır.

Bu Anlaşma Memorandumu Daşkənd şəhərində 20 oktyabr tarixində hər biri Azərbaycan, özbək və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

Bu Memorandumun təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, İştirakçılar ingilis dilindəki mətnə müraciət edəcəklər.

**Azərbaycan Respublikasının**
**Əmək və Əhalinin Sosial Müdafiəsi**
**Nazirliyi adından**

**Özbəkistan Respublikasının**
**Prezidenti yanında**
**Milli Sosial Müdafiə Agentliyi**
**adından**